# YAXŞI YADIMDADIR O MƏCLİSLƏR...



*Elnarə ABDULLAYEVA,*
***Əməkdar artist***

...Seyfəddin Qəniyevi çoxdan tanıyıram. Şamaxıda Pedaqoji İnstitutun filialı yaradılandan sonra orada ilk çalışanlardandır. Filial yaradılandan sonra Şamaxıda keçirilən bütün tədbirlərin təşkilatçısı, aparıcısı Hacı Seyfəddin olmuşdur. Görkəmli alim Şamaxıda muğam tarixini yaxşı bilir. Özü də AYBnin üzvü kimi Şirvan aşıq və şairlərini bir araya gətirmiş, böyük, dəyərli məclis qurmuş, Şamaxıda uzun illər bu məclisə rəhbərlik etmiş, görüşlər keçirmiş, mən də Şamaxıda yaşadığım illərdə həmin məclisdə həmişə çıxış etmişəm, həmin məclisdə olmağı özümə şərəf bilmişəm. İndinin özündə də Şamaxıya gedəndə Hacı ilə görüşməkdən şərəf duyuram... O, Şamaxı xanəndə, müğənnilərinə, sənət adamlarına həmişə hörmətlə yanaşmış, onlar haqqında kitab, məqalə yazmaqdan yorulmamışdır. Əziz qardaşım həmişə xeyir-şərimizdə bizimlə olmuşdur... Oğlunun toyunda hamımız yaxından iştirak etmişik. O da bizim toylarımızda...

Əzizimiz, görkəmli alimə yeni-yeni uğurlar arzulayırıq.